# *İlham İNAM - 50*



***Hörmətli İlham müəllim!***

***Sizi - istedadlı şair 50 illik yubileyiniz münasibətilə təbrik edirik.***

***Siz 1982-1992-ci illərdə orta təhsili bitirmiş, 1994-1995-ci illərdə həqiqi hərbi xidməti yerinə yetirərkən ermənilərin açdığı atəş nəticəsində ağır yaralanmısınız. 1991-ci ildən yerli və mərkəzi mətbuatda şeir, məqalə və publisistik yazılarla çıxış edirsiniz.***

***2002-2007-ci illərdə Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində filologiya fakültəsinin jurnalistika ixtisası üzrə bakalavr dərəcəsində ali təhsilə yiyələnmisiniz.***

***İlk şeirlər kitabınız 2003-cü ildə nəşr olunan "Yadına mən düşəndə"dir. "Ürəyimdə ümidlərim üşüməz" (2009), "Xəyalım çəkib şəklini" (2015), "Ömür deyilən budurmu" (2018) , "Dünyanın Ramil nağılı" (2020), "Elin qəlbindəki Elgün" (2023), "Anamın xeyir-duası" (2024), "Sevgi pöhrələri" nəsr kitabı (2024), "Şeir də könül işidir" (2025) adda kitablarınız nəşr edilmişdir.***

***2006-cı ildə Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanlığının keçirdiyi "Vətən sərhəddən başlanır" müsabiqəsində eyniadlı şeirinizə görə poeziya nominasiyası üzrə 3-cü dərəcəli diplom və pul mükafatı ilə mükafatlandırılmısınız. Müxtəlif illərdə müxtəlif media diplomları və Fəxri Fərmanlarla təltif edilmisiniz. Şeirləriniz türk, ingilis və rus dillərinə tərcümə edilmişdir.***

***2005-ci ildən Şəmkir rayonu Yuxarı Seyfəli kənd İsrafil Mehdixanov adına tam orta ümumtəhsil məktəbində Azərbaycan dili və Ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyətlə məşğulsunuz.***

***Hörmətli İlham müəllim!***

***Sizi bir daha 50 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.***

**Azərbaycan Yazıçılar Birliyi**